Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi

Azərbaycan Milli Kitabxanası

# Hərbi vətənpərvərlik tərbiyəsinin təbliğində Aprel döyüşlərinin rolu

**BAKI - 2017**

Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

Azərbaycan
Milli Kitabxanası

# Hərbi vətənpərvərlik tərbiyəsinin təbliğində Aprel döyüşlərinin rolu

*Respublikanın kütləvi və ixtisaslaşdırılmış kitabxanaları, Mərkəzləşdirilmiş Kitabxana Sistemləri üçün metodik tövsiyələr*

**BAKI – 2017**

**Tərtibçi**: **S.Quliyeva**

**Redaktor:** **A.Abdullayeva**

**İxtisas redaktoru və buraxılışa məsul:** **K.M.Tahirov,**
*professor,*
*Əməkdar mədəniyyət işçisi*

**Hərbi vətənpərvərlik tərbiyəsinin təbliğində Aprel döyüşlərinin rolu**/tərt.ed. S.Quliyeva; ixtisas red. və bur.məs. K.Tahirov; red. A.Abdullayeva;M.F.Axundov ad. Azərbaycan Milli Kitabxanası.- Bakı,2017.- 36 s.

**© Azərbaycan Milli Kitabxanası, 2017**

## Tərtibçidən

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair 1994-cü il may ayının 12-dən qüvvədə olan Atəşkəsə məhəl qoymayan Ermənistan silahlı qüvvələri mövqelərimizə daim atəş açır, dinc əhaliyə, yaşayış yerlərinə zərər vururlar. Düşmən növbəti dəfə təxribata əl ataraq 2016-cı il aprel ayının 2-də yenidən mövqelərimizəhücuma keçmiş, bir neçə dinc sakini qətlə yetirmişdir. Azərbaycan Ordusu bu hücumun qarşısını almaq üçün əks-hücumla bir sıra məntəqələri və yüksəklikləri azad etmişdir.

Təqdim edilmiş vəsaitdə Qarabağ müharibəsi, Aprel döyüşləri haqqında qısaca məlumat verilmiş,kitabxanalarda hərbi vətənpərvərlik tərbiyəsinin təbliğində müvafiq tədbirlərin keçirilməsinə kömək məqsədilətövsiyələrəks etdirilmişdir. Əlavə olaraq rəsmi sənədlər, Aprel döyüşlərində həlak olmuş şəhidlərin siyahısı, istifadə olunmuş ədəbiyyatverilmişdir.

Nəşrlə bağlı rəy və təkliflərini Milli Kitabxanaya göndərən şəxslərə əvvəlcədən minnətdarlığımızı bildiririk.

**Ünvan:** AZ-1000 Bakı ş., Xaqani küç. 57;
**E-mail:** metodik@anl.az;
**URL:** www.anl.az.

# Giriş

Tarixən Azərbaycan torpaqlarına göz dikən ermənilər Cənubi Qafqazda, o cümlədən Azərbaycanda yaşamamış, bu ərazilərə sonradan və tədricən başqa ölkələrdən köçürülmüşlər.Dağlıq Qarabağda kompakt şəkildə yaşayan ermənilər dəfələrlə Ermənistana birləşmək barədə məsələ qaldırmış, hələ ötən əsrin 40-cı illərindən erməni lobbisinin başçısı A.Mikoyanın təşəbbüsü ilə Ermənistanda gizli "Qarabağ komitəsi" yaradılmışdı.

A.Mikoyanın və M.Suslovun təşəbbüsü ilə növbəti dəfə XX əsrin 50-ci illərindəDağlıq Qarabağın Ermənistana verilməsi məsələsi qaldırıldı, Ermənistanda antiazərbaycanlı təbliğatı yenidən qızışdırıldı.Lakin ölkədə 30-dan çox milli münaqişə ocağının olduğunu nəzərə alan sovet rəhbərliyi bu məsələnin arzuolunmaz nəticələr verə biləcəyini başa düşərək problemi Azərbaycanın xeyrinə həll etdi.

XX əsrin 60-cı illərinin ortalarında Ermənistan SSR-də növbəti dəfə antiazərbaycanlı hərəkat vüsət aldı.Beləliklə, azərbaycanlıların daha da sıxışdırılmasına, Dağlıq Qarabağ Muxtar Vilayətində (DQMV) erməni millətçiliyinin açıq şəkildə kök salmasına təkan verildi.

Ermənilər 1977-ci ildə SSRİ Konstitusiyası və 1978-ci ildə Azərbaycan SSR Konstitusiyası qəbul edilərkən də Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi ilə bağlı iddialar qaldırmışdı. LakinUlu öndər Heydər Əliyev ermənilərin bütün məkrli planlarının qarşısını almışdı.

1987-ci ilin sonlarından Yerevanda Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi tələbləri ilə kütləvi aksiyalar həyata keçirildi.Həmin ərəfədə artıq DQMV ərazisində separatçı "Krunk" təşkilatı yaradılmışdı və onun üzvləri 1988-ci ilin yanvar ayında yardım almaq üçün Moskvaya getmişdilər. Beləliklə, separatçılıq dalğasının başlanması üçün ideoloji-təbliğat işi böyük

vüsat alırdı. Ulu öndərin ittifaq rəhbərliyindən uzaqlaşdırılması problemin həllində Moskvanın birbaşa ermənipərəst mövqe tutacağını şərtləndirmişdi.Fevral ayından Xankəndidə Ermənistandan xalq deputatları qismində vilayətə gələn emissarların təşkilatçılığı ilə mitinqlər başladı.

1988-ci ilin fevral ayından Ermənistanın Azərbaycan Respublikası ərazisinə qarşı təcavüzünə, azərbaycanlı əhalinin öz torpaqlarından deportasiyasına, Azərbaycan torpaqlarının erməni silahlı qüvvələri tərəfindən işğalınabaşlanmışdır.

1989-cu ilin yanvarında SSRİ Ali Sovetinin Rəyasət Heyəti “Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində xüsusi idarə formasının tətbiq edilməsi haqqında” fərman verdi. Fərmana əsasən Dağlıq Qarabağ Azərbaycanın tərkibində muxtar vilayət statusu saxlanılmaqla, Moskvaya tabe olanxüsusi idarə forması yaradıldı. A.Volskinin rəhbərlik etdiyi Xüsusi İdarə Komitəsi vilayətin Azərbaycanın yurisdiksiyasından çıxarılması üçün bütün vasitələrdən istifadə etdi.

1991-ci ilə qədər Dağlıq Qarabağda və eləcə də Ermənistanla həmsərhəd rayonlarda azərbaycanlılar yaşayan kəndləri işğal edən, qırğınlar, soyqırımlar törədən ermənilər SSRİ-nin dağılmasından sonra işğal planını yeni fazaya keçirdilər. Güclü himayəçilərə arxalanan ermənilər Dağlıq Qarabağı və ona bitişik 7 rayonu (Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın) işğal etdilər.

Beləliklə, Azərbaycan ərazilərinin 20 faizi işğal edilmiş, 20 mindən çox insan qətlə yetirilmiş, 50 mindən artıq adam yaralanmış və şikəst olmuşdur. Bir milyondan artıq insan 25 ildir ki, qaçqın və məcburi köçkün şəraitində yaşayaraq Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırım siyasətinin qurbanı olmuş, elementar insan haqlarından məhrum edilmişdir.

İşğal nəticəsində 900-dən artıq yaşayış məntəqəsi talan edilmiş, yandırılmış və dağıdılmış, 6 min sənaye, kənd təsərrüfatı müəssisəsi və digər obyektlər məhv edilmiş, ümumi yaşayış sahəsi 9 mln $m^2$-dən artıq olan 150 min yaşayış binası dağıdılmış,

4366 sosial-mədəni obyekt, 695 tibb ocağı məhv edilmişdir. Ermənistan Respublikası "Hərbi münaqişələr zamanı mədəni sərvətlərin qorunması haqqında" Haaqa Konvensiyasının və "Mədəni sərvətlərin qeyri-qanuni dövriyyəsi haqqında" Paris Konvensiyasının müddəalarını kobudcasına pozaraq Azərbaycanın mədəni sərvətlərini talamaqla məşğuldur.

İşğal edilmiş ərazilərdə kənd təsərrüfatı sahəsi, su təsərrüfatı, hidrotexniki qurğular, bütün nəqliyyat və kommunikasiya xətləri tam sıradan çıxarılmışdır. Azərbaycanın civə, obsidan və perlit ehtiyatlarının hamısı, tikinti və üzlük materiallarının 35-60 faizi, meşə fondunun 23,8 faizi, su ehtiyatlarının 7,8 faizi və s. işğal olunmuş ərazilərdə qalmışdır. Orada həmçinin 2 qoruq, 3 yasaqlıq, 3 iri su anbarı da yerləşir.

Hərbi təcavüz zamanı ələ keçirilmiş Azərbaycan ərazilərində 927 kitabxana (kitab fondu 4,6 milyon nüsxə), 464 tarixi abidə və muzey, 100-dən çox arxeoloji abidə, 6 dövlət teatrı və konsert studiyası dağıdılmışdır. Talan edilmiş muzeylərdən 40 mindən çox qiymətli əşya və nadir eksponat oğurlanmışdır. Belə ki, Kəlbəcər Tarix Diyarşünaslıq Muzeyi yerlə yeksan olunduqdan sonra muzeyin ekspozisiyasına daxil olan nadir qızıl və gümüş zinət əşyaları, ötən əsrlərdə toxunmuş xalçalar Ermənistana daşınmışdır. Şuşadakı Tarix Muzeyinin, Ağdamdakı Çörək Muzeyinin, Zəngilandakı Daş Abidələr Muzeyinin də aqibəti belə olmuşdur. Oğurlanmış və məhv edilmiş bu tarixi-mədəni sərvətlərin dəyərini müəyyənləşdirmək, pulla qiymətləndirmək mümkün deyildir. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş 822, 853, 874, 884 saylı qətnamələrində Azərbaycan Respublikasının ərazi bütövlüyünün tanınmasına və işğal olunmuş Azərbaycan ərazilərinin qeyd-şərtsiz azad edilməsi tələblərinə baxmayaraq, Ermənistan Respublikası bu gün də işğalçılıq siyasətini davam etdirir.

Minsk qrupu ATƏT-in Nazirlər Şurasının 1992-ci ilin martında Helsinkidə keçirilmiş görüşündə yaradılmışdır.Azərbaycan, Ermənistan, Rusiya Federasiyası, Amerika Birləşmiş

Ştatları, Fransa, Almaniya, Türkiyə, Belarus, Finlandiya və İsveç qrupun üzvləridir.

1996-cı ilin dekabrından onun üçhəmsədri var - Rusiya, ABŞ və Fransa. Qrupun əsas vəzifəsi Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. Bu günə kimi ATƏT-in Minsk qrupunun fəaliyyəti heç bir nəticə verməmişdir.

1994-cü ildə ("Bişkek protokolu") atəşkəs haqda sənəd imzalanmış, mayın 11-dən 12-nə keçən gecə atəşkəs rejimi qüvvəyə minmişdir.

Prezident İlham Əliyev: "Məsələnin həlli çox sadədir – erməni silahlı birləşmələri işğal edilmiş torpaqlardan çıxmalıdır, Azərbaycan vətəndaşları öz doğma torpaqlarına qayıtmalıdırlar, ondan sonra regionda sülh və təhlükəsizlik yarana bilər. O ki, qaldı xalqların öz müqəddəratını təyin etməsi prinsipinə, bu prinsip ölkələrin ərazi bütövlüyünü pozmamalıdır və Helsinki Yekun Aktında məhz bu ifadələr öz əksini tapır. Bütün münaqişələr ölkələrin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır" deməklə həm problemin həlli yolunu, həm də prinsiplərini bir daha bəyan etdi.

Atəşkəs elan edilməsinə baxmayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində minaatanlardan və iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini dəfələrlə pozmuşlar.

Erməni təcavüzkarlarının növbəti atəşkəs rejimini pozmaq cəhdi 2016-cı il aprel ayının 1-dən 2-nə keçən gecə baş verdi.Gün ərzində Azərbaycanın cəbhə boyu mövqeləri və yaşayış məntəqələri erməni silahlı qüvvələri tərəfindən güclü artilleriya atəşinə məruz qaldı. Nəticədə2 dinc sakin ölmüş, 10 nəfər yaralanmış, infrastruktur obyektləri zədələnmiş, evlər dağıdılmış, əhalinin şəxsi təsərrüfatına və əmlakına xeyli ziyan dəymişdir.Azərbaycan tərəfindən bu hücumun qarşısının alınması, mülki əhalinin təhlükəsizliyinin qorunması məqsədilə

Azərbaycan Silahlı Qüvvələrinin komandanlığı tərəfindən Ağdərə-Tərtər-Ağdam və Xocavənd-Füzuli istiqamətində təxirə salınmaz cavab tədbirləri həyata keçirilmiş,Goranboy rayonuna və Naftalan şəhərinə təhlükə yarada biləcək Talış kəndi ətrafındakı yüksəkliklər, Seysulan məntəqəsi və Füzuli rayonu istiqamətində yerləşən "Lələtəpə" adlandırılan yüksəklik düşməndən azad edilmişdir. Döyüşlər nəticəsində Azərbaycan Silahlı Qüvvələri Ağdərə-Madagiz istiqamətində yolların nəzarətdə saxlanılmasını təmin etmişdir.

Məlumata görə hərbi əməliyyatlar zamanı ermənilərə məxsus 30 tank, 15-dək artilleriya qurğusu və möhkəmləndirilmiş mühəndis qurğuları məhv edilmiş, 320 döyüşçüsü öldürülmüş və 500-dən artıq döyüşçü yaralanmışdır.

Aprelin 5-də saat 12.00-dan etibarən Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttində tərəflərin razılığı ilə əməliyyatlar dayandırılmışdır. Razılaşma Rusiyanın paytaxtı Moskva şəhərində Azərbaycan və Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisləri arasında əldə edilmişdir. Azərbaycan Silahlı Qüvvələrinin bölmələri azad edilmiş torpaqlarda möhkəmləndirmə işlərini həyata keçirmişlər.

Azərbaycan Ordusunun həyata keçirdiyi uğurlu əks-hücum hərbi əməliyyatı nəticəsində erməni işğalından azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində insanların təhlükəsiz yaşaması mümkün olmuşdur. Bununla da, tarixən burada yaşamış dinc əhalinin öz doğma yurdlarına qayıtması üçün Azərbaycan Silahlı Qüvvələrinin tam nəzarətinə keçmiş həmin ərazilərdə əsaslı yenidənqurma işlərinin başlanmasına şərait yaranmışdır. Bu məqsədlə ölkə başçısı cənab İlham Əliyev 24 yanvar 2017-ci il tarixində "İşğaldan azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalamışdır. Sərəncama əsasən Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı görüləcək işlər çərçivəsində birinci mərhələdə 50 fərdi yaşayış evinin, məktəb binasının və müvafiq infrastrukturun tikintisi üçün

Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə ilkin olaraq 4,0 (dörd) milyon manat ayrılmışdır.

Tarixə "Dördgünlük müharibə" adı ilə düşən aprel döyüşləri gənclərin hərbi vətənpərvərlik ruhunu daha da yüksəltdi. Aprel döyüşlərində qazanılan qələbə xalqımızın orduya olan inamını artırdı. Ermənilər Azərbaycan əsgərinin qarşısında diz çöküb məğlub oldular.

Bu gün əli silah tutan hər kəs vətən uğrunda döyüşməyə hazırdır. Son döyüşlər bir daha göstərdi ki, ordumuzun potensialı böyükdür. Bu uğurlu döyüşlər Silahlı Qüvvələrimizin gələcəkdə qazanacağı qələbələrin yalnız başlanğıc nöqtəsidir.

## Aprel döyüşlərinin təbliğində kitabxanaların qarşısında duran vəzifələr

Vətənpərvərlik bir fərdin ölkəsinə duyduğu sevgi və bağlılığıdır. Azərbaycanda vətənpərvərlik hissləri XX əsrin sonlarında, SSRİ-nin parçalanmasından sonra daha qabarıq özünü göstərməyə başlamışdır. Vətənpərvərlik qəhrəmanlığın əsasını qoyan amildir. Biz şanlı tariximizlə, əfsanəvi qəhrəmanlarımızla həmişə fəxr edirik. Cavanşir, Babək, Şah İsmayıl Xətai, Səmədağa Mehmandarov, Əliağa Şıxlinski, Cəmşid bəy Naxçıvanski, Həzi Aslanov, İsrafil Məmmədov, Mehdi Hüseynzadə kimi igid və cəsur sərkərdələrimizin göstərdikləri şücaət bunu bir daha sübut edir ki, Azərbaycan xalqı qəhrəman xalqdır. Bu xalq öz vətənini göz bəbəyi kimi qorumağa hazır olan mətin gənclər yetirmişdir.Vətənpərvərlik insanı səciyyələndirən ən mühüm keyfiyyətlərdən olduğundan onun böyüməkdə olan nəslə aşılanması, uşaq, yeniyetmə və gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi həmişə vacib məsələlərdən biri olmuşdur.Buna görə də ulu öndərimiz, müstəqil Azərbaycanımızın memarı və qurucusu Heydər Əliyev vətənpərvərlik tərbiyəsinə, uşaq və gənclərin vətənpərvər ruhda böyüməsinə xüsusi əhəmiyyət vermiş və bunu çıxışlarında dönə-dönə tövsiyə etmişdir.

Vətənpərvərlik tərbiyəsində xalqımızın qəhrəman oğulları, tarixi şəxsiyyətlər haqqında uşaq bağçalarında, məktəblərdə aparılan təlim-tərbiyə işləri daim diqqət mərkəzindədir. Azərbaycanda hərbi vətənpərvərlik hisslərinin inkişaf etdirilməsi üçün, xüsusilə torpaqlarının 20 faizi işğal altında olan ölkənin tarixi haqqında orta və ali məktəblərdə sistemli məlumat verilir. Orta məktəblərdə *“Cəsurlar”, “Şahin”, “Sərhəd”* kimi hərbi idman oyunlarının,*“Azərbaycan Ordusunun Yaradılması Günü”* kimi bayram tədbirlərində hərbi hissələrə, döyüş yerlərinə getmək, qəhrəmanların xatirə abidələrinə ekskursiyalar təşkil etmək,

Qarabağ müharibəsinin veteranları və milli ordunun nümunəvi əsgərləri ilə görüşlər keçirilməsi gənclərin yaddaşında dərin iz buraxır, onları vətənin müdafiəsinə hazırlayır.

Aprel döyüşlərində qəhrəmanlıq göstərən əsgərlərimizi, zabitlərimizi, yaralanmış və şəhid olmuş igidlərimizi xalqımıza geniş şəkildə tanıtmaq üçün kitabxanalarımız bir sıra tədbirlər həyata keçirməlidirlər.Erməni qəsbkarlarına qarşı ölüm-dirim savaşında həlak olmuş qəhrəmanlarımızın ibrətamiz həyatı, şəxsi nümunəsi apardığımız hərbi vətənpərvərlik tərbiyəsi işində ön plana keçməlidir. Hərbi vətənpərvərlik mövzusunda müxtəlif tədbirlər: sərgilər, ədəbi-bədii gecələr və müzakirələrin keçirilməsi, fotosərgilər, guşələr, fotoalbomların hazırlanması, kitab təqdimatları, görüşlər, anım günləri və s. bu sahədə ən təsirli formalardır.

Kitabxananın foyesində "Aprel şəhidləri" və ya "Dördgünlük müharibə" adlı güşə, fotostend yaradılmalı, dəhlizlərdə quraşdırılan monitorlarda aprel döyüşləri haqqında sənədli filmlər nümayiş olunmalıdır.

Aprel döyüşlərinə həsr olunmuş **guşə** nisbətən geniş və əhatəli olmalıdır. Guşənin təşkilində məqsəd oxuculara mövzu haqqında daha dolğun məlumat verməkdən ibarətdir. Guşədə əlavə olaraq kartotekadan, tövsiyə ədəbiyyat siyahılarından, sənədlər və şəkillərdən, səs yazılarından ibarət disklərdən istifadə etmək olar. Guşəni kitabxananın foyesində, gözə çarpan yerdə təşkil etmək, cəlbedici başlıq yazmaq daha məqsədəuyğun olardı. Bundan başqa kitabxanalar öz saytlarında elektron guşələr yarada bilərlər.

Aprel döyüşləri, şəhid olmuş qəhrəmanlar, geri qaytarılan torpaqlarımız barədə məlumatları əks etdirən buklet, kitabxanada aprel döyüşləri haqda mövcud olan sənədləri əks etdirən məlumat bülleteni hazırlamaq olar.

Kitabxanada həmçinin Aprel döyüşləri qurbanlarına abidə ağacı da hazırlamaq məqsədəuyğun olardı.Bu ağac rəmzi xarakter daşıyır və kitabxanaçının yaradıcı fəaliyyət məhsuludur.

Dördgünlük müharibədə həlak olmuş qəhrəmanlarımızın fotoları, onlar haqqında qısa məlumatlar, müharibə barədə informasiya əks etdirilə bilər.

Müasir dövrdə kitabxanaların əsasən informasiya texnologiyaları ilə təmin olunduqlarını nəzərə alaraq hər bir kitabxana öz saytında**elektron məlumat bazası** yarada bilər.

**Hərbi vətənpərvərlik mövzusunda elektron məlumat bazasına nümunə:**

**Aprel döyüşləri şanlı tariximizdir**

**Rəsmi Sənədlər**
**Tarix**
**Aprel Şəhidləri**
- ✓ Siyahı
- ✓ Təltif olunduqları orden və medallar
- ✓ Adlarının əbədiləşdirilməsi

**Nəşrlər**
- ✓ *Kitablar*
- ✓ *Məqalələr*

**Fotoqalereya**
**Videoqalereya**

Bu elektron məlumat bazasınımüxtəlif tədbirlərdə təqdim etmək olar.

**Şəhidlərimizi unutmarıq – Anım günü.**Vətən uğrunda döyüşən, şəhid olan döyüşçülərimizi tanımaq və unutmamaq üçün anım günlərinin keçirilməsi vacib tədbirlərdən biridir.Anım günü ilə əlaqədar əvvəlcədən hazırlıq işləri görülür. Bu məqsədlə Qarabağ müharibəsi barədə, döyüşlər və milli qəhrəmanlarımız barədə, Aprel döyüşçülərinin xatirəsinə fotostendlər, sərgilər,video çarxlar, slayd şoular hazırlanır, sənədli filmlər göstərilir.

Tədbiri keçirmək üçün ictimaiyyət nümayəndələrini, şəhidlərin valideynlərini, döyüş yoldaşlarını dəvət etmək, regionlarda abidə komplekslərini ziyarət etmək, aprel döyüşçülərinin xatirəsini birdəqiqəlik sükutla yad etmək məqsədəuyğun olar. Anım günü giriş sözü ilə açılır, döyüşçülərin və şəhid olmuş əsgərlərimizin həyat və döyüş yolu barədə qısa məlumat verilir. Sonra çıxışlara yer verilir,dəvət olunan qonaqlar şəhidlər, onların qəhrəmanlığı barədə xatirələrini danışır, hərbçilər öz təcrübələri barədə fikirlərini oxucularla bölüşürlər.

"Qarabağ bizimdir, bizim olacaq" mövzusunda **Aksiya** keçirmək olar. Aksiyanı keçirmək üçün kitabxanaçı öncədən hazırlıq işləri görməli, Apreldöyüşləri barədə məlumat vərəqələri, bukletlər, plakatlar hazırlamalı, aksiyada iştirak edəcək qonaqları əvvəlcədən müəyyənləşdirməlidir. Aksiyalar zamanı regionlarda şəhidlərin xatirəsinə ucaldılmış abidə komplekslərinə yürüş etmək, bukletləri, vərəqələr hazırlayıbtədbir iştirakçılarına təqdim etməkməqsədəuyğun olardı. Əvvəlcədən bir neçə nəfər çıxışçı müəyyənləşdirmək lazımdır. Aksiya çərçivəsində "Evlərə məlumat yayaq" devizi altında xidməti ərazidə olan evlərə Aprel döyüşləri haqqında, mövzu ilə bağlı kitabxanada olan nəşrlərin siyahısından ibarət məlumat bülleteni, bukletlər paylamaq olar.

*"Aprel döyüşləri və hərbi vətənpərvərlik"*mövzusunda kitabxanalarda **dəyirmi masaların** təşkiliçox əhəmiyyətlidir.

Dəyirmi masada ilk növbədə Aprel döyüşləri ilə bağlı müzakirə olunacaq məsələlər müəyyənləşdirilməli, qonaqlar əvvəlcədən təyin edilməli, mütəxəssislərin konkret mövzularda çıxışları nəzərdə tutulmalıdır. Dəyirmi masanın keçirilməsi üçün mövzu ilə bağlı suallar öncədən hazırlanır. Tədbirdə tarixçilərin, Aprel döyüşlərinin şahidlərinin,ziyalılar, ictimai xadimlər, hərbçilər, şəhid olmuş əsgərlərin yaxınlarınıniştirakı məqsədəuyğun olar. Kitabxanaçı öncədən mövzuya həsr olunmuş geniş kitab sərgisi hazırlamalı, ehtiyac olduqda slaydlar, videoçarxlar, lent yazıları da təqdim etməlidir. Oxucuları və geniş ictimaiyyəti

məlumatlandırmaq məqsədilə kitabxananın saytında, sosial şəbəkələrdə keçiriləcək tədbir barədə anons verilməlidir.

Maraqlı tədbirlərdən biri *"Xalqımızın vətənpərvər oğulları"* mövzusuna həsr olunan **ədəbi-bədii kompozisiyadır.**İlk növbədə ssenari yazmaq, proqram tərtib etmək, tədbirin aparıcısını, qonaqlarımüəyyənləşdirmək lazımdır. Bundan başqa mövzuya aid sərgi və fotoşəkillərdən ibarət stend foyedə təşkil edilə bilər.Tədbirin birinci hissəsindəmövzuya uyğun olaraq məruzəçi çıxış etdikdən sonra digər şəxslərə söz verilməlidir. İkinci hissədə tədbirin keçirildiyi ərazidə yerləşən məktəblərin özfəaliyyət kollektivi və ya teatrlardan dəvət olunan aktyorların çıxışları, *"Lələtəpəfatehləri"*, *"Qəhrəman Tərtər"* və s. kimi vətənpərvərlik haqqında mahnılartəqdim edilir.Aprel döyüşləri haqqında çəkilmiş sənədli filmlər nümayiş etdirmək, döyüşçülərin qəhrəmanlığına həsr edilmiş şeirlər səsləndirmək olar.

*"Dörd günlük müharibə"* başlığı altında **sərgidə**kitabxananınfondunda olan ədəbiyyat seçilməli, sitat, izahlı mətnlər, döyüşlərdə həlak olmuş şəhidlərin siyahısı, çəkilmiş rəsmlər, fotolaryerləşdirilməlidir.Tədbirdən əvvəl elan yazılmalı, dəvətnamələr hazırlanmalıdır.

Kitabxanaçı əraziyə yaxın **hərbi hissələrdəkitab təqdimatı və ya icmal** keçirə bilər. Tədbirə ictimaiyyət nümayəndələri, əsgərlərin valideynləri, ziyalılar və s. dəvət olunur. Hərbi hissədə vətənpərvərlik ruhunda yazılmış ədəbiyyat,Aprel döyüşlərində qəhrəman döyüşçülər və şəhidlər barədə kitabxanaya daxil olan yeni kitablar, məqalələr sərgilənə bilər. Vətənpərvərlik mövzusunda və ya Qarabağa həsr edilmiş yeni kitabların təqdimatı və ya aprel döyüşləri barədə kitabxanada olan nəşrlərin icmalını kitabxanaçı həyata keçirməli, kitablar, məqalələr haqqında ətraflı məlumat verməli, kitablardan və ya məqalələrdən seçilmiş maraqlı fikirlər gənc əsgərlərin diqqətinə çatdırılmalıdır.

Hərbi hissədə görüş zamanı kitabxanaçı gənclərdə hərbi vətənpərvərlik hisslərinin daha da güclənməsi, vətənin tarixinin yaxından öyrənilməsi məqsədilə tarixə dair, bədii ədəbiyyata dair

kitablar seçib hərbi xidmətdə fərqlənən əsgərlərə hədiyyə edə bilər. Tədbirin daha maraqlı keçməsi üçün ərazidə yerləşən klub, mədəniyyət evi və yaxud musiqi məktəbləri ilə birgə vətənpərvərlik mövzusunda konsert proqramı da təşkil etmək olar.

**Yaradıcı adamlarla görüşlər.**Bu görüşə Qarabağ mövzusunda yazan yazıçı və şairlər, ziyalılar, görkəmli şəxslər dəvət oluna bilər. Kitabxanaçı belə görüşlərə xüsusilə uşaq və gənc oxucuları cəlb etməlidir. Görüşlər zamanı yazıçı və şairlər, kitab müəllifləri, ziyalılarQarabağın tarixi, mədəniyyəti, 4 günlük Aprel döyüşləri, Azərbaycanın qəhrəman oğullarıbarədə məlumat verir, imzalı kitabları oxuculara təqdim edir, kitabların onların həyatındakı rolundan bəhs edirlər. Görüşdə Aprel şəhidləri ilə bağlı guşə, foto stend, sərginümayiş etdirilə bilər. Yazıçı və şairlərlə, xüsusilə gənc yazarlarla müəllim və şagirdlərin, gənclərin görüşlərinin tez-tez keçirilməsi çox yaxşı olardı. Belə tədbirlər şagirdlərdə vətənə sevgi, öz tarixinə hörmət hisslərini aşılayır, gəncləri ölkənin inkişafı, rifahı və qələbəsi üçün uğur əldə etməyə ruhlandırır.

Kitabxanalarda kiçikyaşlı oxucular arasında *“Aprel döyüşlərişanlı qələbəmizdir”*mövzusunda **“Oxudun dostunla paylaş”** adlı tədbirtəşkil etmək olar. Kitabxanaçı xidmət etdiyi ərazidə yerləşən məktəblərlə əlaqə yaratmalı, yaş qruplarına uyğun ədəbiyyat seçməli, tədbirə hazırlaşmaq üçün uşaqları həvəsləndirməlidir. Kitabxanaçı əvvəlcə oxucuları məlumatlandırmalı, tədbirin günü və saatı barədə elan yazmalıdır. Oxunacaq kitablar əvvəlcədən seçilir, oxuculara paylanır və müəyyən vaxt verilir. Kitab oxuyan uşaqlar oxuduqları kitabı dostlarına ötürməlidir. Tədbir zamanı bütün iştirakçılar kitablar barədə fikirlərini bölüşürlər.Beləliklə, daha çox dostla oxuyan fəal oxuculara kiçik hədiyyələr, uşaqlar üçün kitabçalar, jurnallar təqdim edilir. Belə tədbirlər uşaqlarda vətənə məhəbbət hisslərini artırır, hərbi vətənpərvərlik ruhunu formalaşdırır və başqa əsərləri oxumağa həvəsləndirir.Tədbirdə uşaqlara bir sıra maarifləndirici suallar da təqdim etmək olar. Məsələn, “Azərbaycanın işğal

olunmuş rayonlarını tanıyırsınızmı?", "Aprel döyüşləri nə vaxt olmuşdur?", "Dörd günlük müharibədə nə baş vermişdir?", "Bu döyüşlərin nəticəsi nə ilə qurtarmışdır?", "Döyüşçülərimizin qəhrəmanlığı haqqında nə bilirsiniz?" və s.

Tədbir çərçivəsində ərazidə şəhidlər və ya döyüşçülər haqqında xatirə muzeylərinə, tarix-diyarşünaslıq muzeylərinə ekskursiya da təşkil etmək məqsədəuyğundur.

Kitabxananın kataloq və kartotekalarında "Aprel döyüşləri", "Dördgünlük müharibə", "Aprel şəhidləri" başlıqlı ayrıclar altında müvafiq ədəbiyyatı ayrıca göstərmək lazımdır. Kitabxananın saytında isə Aprel döyüşləri ilə bağlı ayrıca bölmələr ayırmaq, 1 sıra linklərə isnad etmək olar.

Kitabxanada müxtəlif tədbirlərin təşkilində Azərbaycan Milli Kitabxanasının hərbi-vətənpərvərlik mövzusunda hazırladığı elektron məlumat bazalarından "Vətənimdir Azərbaycan", "Qarabağ müharibəsi", "31 Mart Azərbaycanlıların Soyqırımı Günü", "Xocalı", "20 Yanvar Qan Yaddaşımız" adlı məlumat bazalarından həm istifadə etmək, həm də tədbirlərdə təqdim etmək oxucular üçün də əhəmiyyətli olar. (http://anl.az/new/az/pages/60)

Qeyd etmək lazımdır ki, kitabxanalar keçirdikləri bütün tədbirlər barədə kitabxananın sosial şəbəkələrdəki səhifələrində paylaşımlar edərək kitabxanaya daha çox oxucu cəlb edə bilərlər. Eyni zamanda kitabxanaya daxil olan nəşrlər, kitabxananın həyata keçirdiyi layihələr, müsabiqələr, virtual sərgilər, elektron məlumat bazaları barədə vaxtaşırı oxucuları məlumatlandırmaqla onlarda yaradıcı fəallıq, kitaba, mütaliəyə, oxuya həvəs yaratmış olarlar.

# Əlavələr

**Əlavə 1**

*2016-cı il aprelin 19-da Azərbaycan RespublikasınınPrezidentinin müvafiq sərəncamları ilə yüksək fəxri ada, orden və medallara layiq görülənlər:*

## "Azərbaycanın Milli Qəhrəmanı" adının verilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə və döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi şəxsi igidliyə görə aşağıdakı şəxslərə "Azərbaycanın Milli Qəhrəmanı" adı verilsin:

polkovnik-leytenant Həmidov Şükür Nəriman oğlu

polkovnik-leytenant Mirzəyev Murad Telman oğlu (ölümündən sonra)

mayor İmanov Samid Gülağa oğlu (ölümündən sonra).

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 19 aprel 2016-cı il
№ 1966

**Əlavə 2**

**Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə və Silahlı Qüvvələr qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin aşağıda adları göstərilən hərbi qulluqçuları təltif edilsin:

**"Azərbaycan Bayrağı" ordeni ilə**

Həsənov Zakir Əsgər oğlu - general-polkovnik
Sadıkov Nəcməddin Hüseyn oğlu - general-polkovnik
Hüseynov Zahid İbrahim oğlu - general-mayor
Musazadə Təbriz Taryel oğlu - mayor (ölümündən sonra)
Vəlizadə Urfan Üzeyir oğlu - mayor (ölümündən sonra)
İsmayılov Əbu Bəkr Vüqar oğlu - baş leytenant (ölümündən sonra)
Misirxanov Tahir İman oğlu - kiçik çavuş

**2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Həşimov Polad İsrayıl oğlu - polkovnik

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Yusifov Vüqar Nurəddin oğlu - polkovnik (ölümündən sonra)
Əliyev Elnur Adil oğlu - mayor (ölümündən sonra)

Bağıyev Mirdamət Səristan oğlu - kapitan
Orucov Seyran Zahir oğlu - kapitan

**"Vətən uğrunda" medalı ilə**

Əliyev Rasim Məmmədəli oğlu - general-mayor
Babayev Famil Əlikərəm oğlu - tibb xidməti polkovniki
Babayev Nemət Balabəy oğlu - polkovnik
Əliyev Elsevər Sərhəd oğlu - polkovnik
Əliyev Rəhim Əhməd oğlu - polkovnik
Abduləzimov Vüqar Allahverən oğlu - polkovnik-leytenant
Ağasiyev Ruslan Dünyaməddin oğlu - polkovnik-leytenant
Babayev Anar Qüdrət oğlu - polkovnik-leytenant
Əbliyev Elnur Baxşəli oğlu - polkovnik-leytenant
Əmirov Əbil Durasan oğlu - polkovnik-leytenant
Mövlanov Tərlan Bəydəmir oğlu - polkovnik-leytenant
Qarayev Elşən Nüsrət oğlu - polkovnik-leytenant
Quliyev Vilayət Bərxuda oğlu - polkovnik-leytenant
Məmmədov Rasim Əbdül oğlu - mayor (ölümündən sonra)
İskəndərov Elnur İskəndər oğlu - baş leytenant (ölümündən sonra)
Namazov Elvin Məmməd oğlu - baş leytenant (ölümündən sonra)
Novruzov Mirzə Səlvər oğlu - baş leytenant (ölümündən sonra)
Teymurov Pəncəli Nurməmməd oğlu - gizir (ölümündən sonra)
Orucov Müşfıq Arif oğlu - əsgər (ölümündən sonra)

**"İgidliyə görə" medalı ilə**

Əliverdiyev Vüqar Əfqan oğlu - polkovnik
Həsənov Yaşar Əmirxan oğlu - polkovnik
Məmmədov Vüqar Seyidbala oğlu - polkovnik
Orucov Bəkir Şirin oğlu - polkovnik
Sultanov Ağamir Əzizxan oğlu - polkovnik

Ələkbərov Fuad Zabit oğlu - polkovnik-leytenant
Həbibullahov Seymur Musa oğlu - polkovnik-leytenant
Məmmədov Nemət Quzuçu oğlu - polkovnik-leytenant
Orucov Raquf İbrahim oğlu - polkovnik-leytenant (ölümündən sonra)
Seyidov Kənan Əlihüseyn oğlu - polkovnik-leytenant
Şıxəliyev Nəsimi Yarməmməd oğlu - mayor
Həsənov Emin Ələkbər oğlu - kapitan
İsrafılov Rəşad Rasim oğlu - kapitan
Orucov Mühüd Qurban oğlu - kapitan (ölümündən sonra)
Quliyev İnqilab Çingiz oğlu - kapitan (ölümündən sonra)
Savalanov Nəcməddin Akif oğlu - kapitan
Ələkbərov Zaur Qasım oğlu - baş leytenant
Mehdiyev Rəşid Rövşən oğlu - baş leytenant (ölümündən sonra)
Şükürov Rəşad Güləli oğlu - baş leytenant
Abdullayev Əmrah Mehman oğlu - leytenant
Məmmədli Cəlal Səyyaf oğlu - leytenant
Rzayev Zülfü Zeyni oğlu - leytenant
Mehdiyev Paşa Etibar oğlu - baş gizir
Cəfərov Mirsalam Təvəkgül oğlu - gizir (ölümündən sonra)
İsgəndərov Nicat Bəhruz oğlu - gizir (ölümündən sonra)
Təhməzov Samir Nizami oğlu - gizir
Əliyev Teymur Mütəllim oğlu - çavuş
İmanov Tağı Məhərrəm oğlu - çavuş
Quliyev Emin Bayram oğlu - çavuş
Əlizadə Qüdrət Təyyar oğlu - kiçik çavuş
Həmidov Orxan İbrahim oğlu - kiçik çavuş (ölümündən sonra)
Qəhrəmanov Ruhin Əşrəf oğlu - kiçik çavuş (ölümündən sonra)
Musayev Səbuhi Rəfael oğlu - kiçik çavuş (ölümündən sonra)
Nəsirov İlyas Arzuman oğlu - kiçik çavuş
Hüseynov Əlvan Qafar oğlu - baş əsgər (ölümündən sonra)
Əhmədov Nicad Usub oğlu - əsgər
Əliyev Asim Mehman oğlu - əsgər
Kaçayev Samir Zirafəddin oğlu - əsgər (ölümündən sonra)

Qəhrəmanov Qəhrəman Əşrəf oğlu - əsgər
Quluyev Azad Maşallah oğlu - əsgər
Mehralıyev Sarvan Natiq oğlu - əsgər (ölümündən sonra)
Məmmədov İlham İsaq oğlu - əsgər
Paşazadə Vüsal Ədalət oğlu - əsgər

**“Hərbi xidmətlərə görə” medalı ilə**

Tahirov Ramiz Firudin oğlu - general-leytenant
Əsgərov Vüqar Feyruz oğlu - polkovnik
Hüseynov Eldəniz Zakir oğlu - polkovnik-leytenant
İsmayılov Hüseyn Möhübbət oğlu - polkovnik-leytenant
Əliyev İlqar Əli oğlu - tibb xidməti polkovnik-leytenantı
Quliyev Subəddin Cəbrayıl oğlu - tibb xidməti polkovnik-leytenantı
Məmmədov Xəyal Tofıq oğlu - tibb xidməti polkovnik-leytenantı
Ədilov Mehman Əlövsət oğlu - mayor
Həsənov Vasif Telman oğlu - mayor
Hüseynov Bəhruz Səməd oğlu - mayor
İmanov Mahir Kamal oğlu - mayor
Məmmədov Rüfət Yusif oğlu - mayor
Muradov Nahid Paşa oğlu - mayor
Muradov Tofıq İmaməli oğlu - mayor
Paşayev Ravil Zeynəddin oğlu - mayor
Pirəliyev Asif Akif oğlu - mayor
Pirimov Bəhman Salman oğlu - mayor
Sadıqov Muraz Arif oğlu - mayor
Verdiyev Rövşən Alim oğlu - mayor
Kərimov Nadir Lənkəran oğlu - tibb xidməti mayoru
Abbasov Anar Aydın oğlu - kapitan
Əliyev Kamran İldırım oğlu - kapitan
Əliyev Rövşən Ramiz oğlu - kapitan
Hüseynov Elşən Yaşar oğlu - kapitan
Qəribov Sahib Xanlar oğlu - kapitan
Sərkarov Yalçın Qafqaz oğlu - kapitan
Fərzəliyev Bahadur Abbas oğlu - baş leytenant
Musayev Rəşad Tahir oğlu - baş leytenant

Təhməzov Təhmiraz Göyüş oğlu - baş leytenant
Qarayev Nurlan Mahmud oğlu - leytenant
Quliyev Rafıq Carulla oğlu - leytenant
Pircanov Mehdi Pircan oğlu - kiçik leytenant
Qasımov Emil Xanbaba oğlu - gizir
Məmmədov Etiram İbrahim oğlu - gizir
Remixanov İmran Süleyman oğlu - gizir
Abbasov Ceyhun Natiq oğlu - baş çavuş
Xancanov Zaur Fikrət oğlu - çavuş
Məhərrəmov Sakit Arif oğlu - çavuş
Yunisli Tural Hidayət oğlu - çavuş
Abbasov İlkin Abbas oğlu - kiçik çavuş
Ələkbərov Vüsal Meyxoş oğlu - kiçik çavuş
Rüstəmov Elməddin Kərim oğlu - kiçik çavuş
Şahbazov Ruslan Mahir oğlu - kiçik çavuş
Quliyev Elmir Məmmədalı oğlu - əsgər
Mərdanov Şəmil Omar oğlu - əsgər

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 19 aprel 2016-cı il
№ 1967

**Əlavə 3**

**Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularına "general-mayor" ali hərbi rütbəsinin verilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının müstəqilliyinin, ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə, öz xidməti vəzifələrini və hərbi hissənin qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə aşağıda adları göstərilən zabitlərə "general-mayor" ali hərbi rütbəsi verilsin:

Polkovnik Bərxudarov Mais Şükür oğlu
Polkovnik Orucov Bəkir Şirin oğlu.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 19 aprel 2016-cı il
№ 1970

**Əlavə 4**

**İşğaldan azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı tədbirlər haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Ötən ilin aprel ayında Azərbaycan Ordusunun həyata keçirdiyi uğurlu əks-hücum hərbi əməliyyatı nəticəsində erməni işğalından azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində insanların təhlükəsiz yaşaması mümkün olmuşdur. Bununla da, tarixən burada yaşamış dinc əhalinin öz doğma yurdlarına qayıtması üçün Azərbaycan Silahlı Qüvvələrinin tam nəzarətinə keçmiş həmin ərazilərdə əsaslı yenidənqurma işlərinin başlanmasına şərait yaranmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı görüləcək işlər çərçivəsində birinci mərhələdə 50 fərdi yaşayış evinin, məktəb binasının və müvafiq infrastrukturun tikintisi üçün Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə ilkin olaraq 4,0 (dörd) milyon manat ayrılsın.

2.Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3.Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 24 yanvar 2017-ci il

**Əlavə 5**

## Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə gedən avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. İşğaldanazad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə gedən,ümumiuzunluğu9kmolanavtomobilyolunun tikintisi məqsədi ilə "Azərbaycan Respublikasının 2017-ciil dövlət büdcəsində dövlət əsaslı vəsaitqoyuluşu(investisiyaxərcləri)üçün nəzərdə tutulan vəsaitinbölgüsü"ndə "Respublikanınkəndlərarası avtomobil yollarının tikintisi və yenidən qurulması" üçün nəzərdətutulmuşvəsaitin 4,3milyon(dördmilyonüçyüzmin) manatı "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının MaliyyəNazirliyibuSərəncamın1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının NazirlərKabinetibusərəncamdanirəli gələn məsələləri həlletsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 10 fevral 2017-ci il

**Əlavə 6**

## Görkəmli şəxsiyyətlər vətənpərvərlik haqqında

Hamımızın ümumi vəzifəmiz xalqımızda vətənpərvərlik, Vətən torpağına, millətə sədaqət, Vətən uğrunda şəhidliyə hazır olmaq hisslərini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etməkdir.

***

Hər bir gənc vətənpərvər olmalıdır, vətənpərvərlik böyük bir məfhumdur.Bu, sadəcə, orduda xidmət etmək deyil. Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq – budur vətənpərvərlik.

***

Öz dilini inkişaf etdirən alim, müəllim, öz tarixini yazan, inkişaf etdirən, tarixini əks etdirən alim, öz mənəviyyatını araşdıran, təhlil edən və ümumiləşdirən, elmiləşdirən, xalqına yüksək səviyyədə çatdıran alim – onlar hamısı birlikdə öz xalqının, millətinin, milli şüurunun, milli ruhunun, vətənpərvərlik ruhunun inkişaf etməsinə, irəlidə getməsinə xidmət göstərir.

**Heydər Əliyev,**
*Azərbaycan xalqının ümummilli lideri*

Azərbaycan öz torpaqlarını müdafiə edir, biz başqa dövlətlərin torpağına göz dikməmişik. Biz heç vaxt Azərbaycan torpağında ikinci erməni dövlətinin yaranmasına imkan vermərik.

***

Mən, dəfələrlə demişəm, siyasi müstəvidə, iqtisadi sahədə, bütün digər sahələrdə, o cümlədən ordu quruculuğu sahəsində Azərbaycanın üstünlüyünü görməmək mümkün deyil. Aprel

döyüşləri onu da göstərdi ki, bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular siyahısındadır və istənilən vəzifəni icra edə bilər.

***

Aprel döyüşləri dövlətimizin və ordumuzun gücünü, xalqımızın birliyini, həmrəyliyini və vətənpərvərliyini nümayiş etdirmişdir.

***

Bizim əsgərlərimiz, zabitlərimiz Vətən uğrunda, torpaq uğrunda ölümə getməyə hazırdırlar.

***

Biz böyüməkdə olan nəslin vətənpərvərlik ruhunda, milli-mənəvi dəyərlərimiz ruhunda tərbiyə edilməsinə çox böyük əhəmiyyət veririk.Bubiziminkişafımızın əsası, hərbirxalqın inkişafının əsasıdır.

***

Məhz aprel döyüşlərindən sonra Ermənistanın müdafiə naziri başda olmaqla bir çox yüksəkvəzifəli hərbçilər öz vəzifələrindən kənarlaşdırıldı. Bu, aprel döyüşlərinin nəticəsi idi. Bizim əsgərlərimiz, zabitlərimiz qəhrəmanlıq göstərdilər. Biz şəhidlər də verdik. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Ancaq torpağımızı qoruduq, torpaqlarımızın bir hissəsini işğalçılardan azad etdik. Aprel döyüşləri hərbi kitablara salınmalıdır. Azərbaycan Ordusu həm hərbi peşəkarlıq, həm qəhrəmanlıq göstərmişdir.

***

Biz öz torpağımızdayıq. Bizim Ermənistan torpağına iddiamız yoxdur. Baxmayaraq ki, bugünkü Ermənistan tarixi Azərbaycan torpaqlarında yaradılıb. Ancaq biz öz torpağımızı heç kimə verəsi deyilik.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

Ali Baş komandanın tapşırığı nəticəsində Silahlı Qüvvələrin döyüş qabiliyyəti, hazırlığı o səviyyədədir ki, biz istənilən vaxt işğal olunmuş ərazilərimizi azad etməyə tam hazırıq.

***

İnanıram ki, bundan sonra respublikamızın ərazi bütövlüyünün bərpa edilməsi, torpaqlarımızın işğaldan azad olunması naminə xidməti borcunuzu şərəf və vicdanla yerinə yetirəcək, döyüş və mənəvi-psixoloji hazırlığın daha da yüksəldilməsində səylərinizi artıracaqsınız.

***

Əsgərdən tutmuş generaladək hər birimiz torpaqlarımızın azad edilməsi yolunda üzərimizə düşən vəzifəni layiqincə yerinə yetirərək döyüşlərə hazır olmalıyıq.

**Zakir Həsənov,**
*Müdafiə naziri, general-polkovnik*

Rusiyanın Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aktivliyi aysberq kimidir, hər kəs aysberqin üst tərəfini görür. Amma bunun aşağı tərəfi də var. Bəzi maraqlı fikirlər söyləyiblər. Yenə də hamısı yenilənmiş Madrid prinsipləri əsasındadır. Rusiyanın təkliflər irəli sürməsi bizim üçün də maraqlıdır. Rusiya bizə mərhələli şəkildə həll təklif edib. Amma ilk növbədə ermənilər işğal olunmuş Azərbaycan torpaqlarından çəkilməlidir.

**Elmar Məmmədyarov,**
*Xarici İşlər naziri*

Biz torpaqlarımızı azad etmək üçün bütün imkanlardan istifadə edəcəyik.

**Xələf Xələfov,**
*Xarici İşlər nazirinin müavini*

Ordumuzdaruhvə vətənpərvərlik hisslərioldüqcayüksəkdir. Ötənilinaprelhadisələribütünbunlarasübutdur.

**Arzu Rəhimov,**
*Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-leytenant*

...Aprel hadisələrindən sonra Dağlıq Qarabağla bağlı məsələdə yeni səhifə açıldı.

**Aydın Mirzəzadə,**
*millət vəkili*

...İşğal altında olan torpaqlarımıza gəlincə. Onu azad etmək üçün biz sadəcə öz gücümüzə arxalanmalıyıq.

**Qənirə Paşayeva,**
*millət vəkili*

Azərbaycan apreldə yaşananlarla üzləşməmələri, məsələnin sülh yolu ilə çözümü üçün ermənilərə qısa müddətli bir şans verir. Torpaqların azad edilməsi yönündə bundan sonra da əhəmiyyətli addımlar atılmadığı təqdirdə, erməni havadarlarının deməyə daha sözləri qalmayacaq. Deməyə söz qalmayanda ordu nə etməli olduğunu bilir.

**Sahib Alıyev,**
*millət vəkili*

Aprel döyüşləri təkrarlanarsa, bu dəfə Rusiya Ermənistanı xilas edə bilməyəcək.

**Arzu Nağıyev,**
*politoloq*

# Ədəbiyyat

**“Azərbaycanın Milli Qəhrəmanı” adının verilməsi haqqında:**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı,Bakı şəhəri, 19 aprel 2016-cı il //Azərbaycan Respublikasının Qanunvericilik Toplusu.- 2016.- № 4.- S.1353.

**Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında:** Azərbaycan Respublikası Prezidentinin Sərəncamı,Bakı şəhəri, 19 aprel 2016-cı il //Azərbaycan Respublikasının Qanunvericilik Toplusu.- 2016.- № 4.- S.1354-1357.

**Cəbrayıl rayonunun Cocuq Mərcanlıkəndinə gedən avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında:** Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 10 fevral 2017-ci il //Azərbaycan.- 2017.- 11 fevral.- S.1.

**İşğaldan azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı tədbirlər haqqında:** Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 yanvar 2017-ci il //Azərbaycan.- 2017.- 25 yanvar.- S. 1.

***

**Abdullayev, Ə.** Qarabağ faciəsi: [monoqrafiya] /Ə.İ.Abdullayev; elmi red. Ə.Əliyev; [baş red. İ.Səfərov; dizayner M.Quliyev]; Azərb. Resp. Təhsil Nazirliyi, Azərb. Döv. İqt. Un-ti.-Bakı: [İqtisad Universiteti], 2016.-227, [1] s.

**Əliyev, F.**Müasir mərhələdə vətənpərvərlk tərbiyəsi: metodik vəsait /F.Əliyev; elmi red. R.Baxşəliyev; rəyçi: M.Allahmanlı [və b.].- Bakı: [ADPU], 2012.- 156, [1] s.

**Hər şey qələbəüçün:** kitab-albom /Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti; haz. A.Rəhimov; buraxılışa məsul Z.Abdullayev; layihənin müəl. və tərtibçi-red. A.Qurbani.-Bakı: OL MMC, 2014.-175, [1] s.

**Qarabağ dünən, bu gün və sabah**: [15-ci elmi-əməli konfransının materialları toplusu: 26 may 2016-cı il].- Bakı, 2016.- 213 s.

**Nağı, A.**Qarabağ müharibəsi: qısa tarix /A.Nağı.- Bakı, 2016.- 160 s.

**Şükürbəyli, İ.**Qətl edilmiş uşaqlar/İ.Şükürbəyli, N.Faiqoğlu; red. M.Çəmənli; [Azərb.Resp.Əsir və İtkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası].- Bakı: Aspoliqraf, 2016.- 158s.

**Tapdıqoğlu, N.** Faciələrimizin təqvim izləri: hər bir azərbaycanlı üçün yaddaş kitabı /N.Tapdıqoğlu.- Bakı: Elm və təhsil, 2014.- 1422 s.

**Ziyəddin, S.** Qarabağ müharibəsi: faktlar... hadisələr... düşüncələr.../S.Ziyəddin.- Bakı: Maarif, 2003.- 770 s.

**Amaşov, Ə.** Müharibənin informasiya cəbhəsi /Ə.Amaşov //525-ci qəzet.- 2016.- 5 aprel, № 58.- S.5.

**Aprel döyüşləriAzərbaycan cəmiyyətinin vətənpərvərlik ruhunu gücləndirdi** //Olaylar.- 2016.- 17 avqust.- S.7.

**Aprel döyüşləriAzərbaycan gəncinə əlavə ruh verdi** //Olaylar.- 2016.- 24 may.- S. 15.

**“Aprel döyüşləribizimşanlı qələbəmizdir”** //Olaylar.- 2016.- 16 noyabr.- S. 15.

**Aprel döyüşləri bizimşanlı tariximizdir**: Azərbaycan Prezidenti İlham Əliyev //Azərbaycan ordusu.- 2016.- 7 dekabr.- S. 1-3.

**Aprel döyüşlərində 320erməni hərbçi məhv edilib** //Ekspress.- 2016.- 14-16 may, № 85.- S.3.

**Azərbaycan Ordusu erməniişğalçılarına sarsıdıcı zərbə endirdi:** Azərbaycan Ordusu bir neçə strateji yüksəkliyi və yaşayış məntəqəsini düşməndən azad edib //Xalq qəzeti.- 2016.- 3 aprel, № 69.- S.4.

**Azərbaycan Prezidenti İlhamƏliyev:** Aprel döyüşləri dövlətimizin və ordumuzun gücünü, xalqımızın birliyini, həmrəyliyi-

ni və vətənpərvərliyini nümayiş etdirmişdir //Azərbaycan ordusu.- 2016.- 11 may, № 35.- S.1.

**Baxşəliyev, R.** Azərbaycan Ordusu qələbə əzmindədir: cəbhədə ermənilərin törətdikləri təxribatlar Ermənistanın mütləq məğlubiyyətini daha da tezləşdirir /R.Baxşəliyev //Azərbaycan.- 2016.- 5 aprel, № 70.- S.4.

**Bədəlov, Ə.** Diplomatların Cocuq Mərcanlıya səfəri Dağlıq Qarabağ problеminin həllinə beynəlxalq dəstəkdir //Xalq qəzeti.- 2017.- 17 fevral.- S. 3.

**Cabbarlı, A.** Azərbaycan ordusunun aprel dərsləri /A.Cabbarlı //Xalq qəzeti.- 2016.- 22 aprel, № 85.- S.5

**Cəfərli, R.** Qarabağ savaşı belə başladı: Qarabağ uğrunda ədalətsiz müharibənin başlamasından 27 il ötür /R.Cəfərli //Azərbaycan.- 2015.- 22 fevral.- S. 3.

**Cəfərli, R**. Lələtəpə zəfəri böyük qayıdışın təməli oldu: Heydər Əliyevin azad etdiyi Cocuq Mərcanlıya İlham Əliyev həyat bəxş etdi /R.Cəfərli //Azərbaycan.- 2017.- 7 fevral.- S. 1, 6.

**Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı qərar aprel döyüşlərinin real nəticəsidir** /AzərTAc //Azərbaycan.- 2017.- 25 yanvar.- S.3.

**Eyvazlı, A.** "Aprel döyüşləri"nin daha bir qəhrəmanı – 20 yaşlı şəhidin həyat hekayəti... /A.Eyvazlı //Türküstan.- 2016.- 23-29 avqust.- S.5.

**Əliyev, B.** Aprel döyüşləri gənc rəssamın yaradıcılığında /B.Əliyev //Azərbaycan ordusu.- 2016.- 13 iyul.- S.8.

**Faxralı, R.** Tarixi unutmuruq, tarix unudulmur /R.Faxralı //Azərbaycan.- 2016.- 7 dekabr.- S.6.

**Qismətoğlu, F.** Böyük qələbənin bir addımlığında /F.Qismətoğlu //Ədalət.- 2016.- 6 aprel, № 59.- S.3.

**Məhərrəmov, V.** Aprel zəfəri apreldə qalmayacaq...Cəbhədən reportaj /V.Məhərrəmov //Azərbaycan.- 2016.- № 7.- S.156-164.

**Məmmədova, N.** Qarabağın açılan "düyün"ü /N.Məmmədova //Xalq qəzeti.- 2016.- 17 aprel.- S.4.

**Orucov, Y.** Lələtəpə-Ermənistanın unutmamalı olduğu dərs /Y.Orucov //İki sahil.- 2016.- 28 dekabr.- S.12.

**Salahov, E.** Erməni vandalizmi: dinc əhaliyə vurulan zərbənin xronologiyası /E.Salahov //İki sahil.- 2016.- 6 aprel, № 59.- S.9.

**Tariximizin şanlı səhifəsi– aprel döyüşləri** //Olaylar.- 2016.- 12 oktyabr.- S.15.

**Vəliyev, D.** Milli Ordunun düşmənə sarsıdıcı zərbəsi böyük Qələbəyə qapı açdı /D.Vəliyev //Xalq qəzeti.- 2016.-17 aprel.- S.4.

## Türk dilində

**Karabağ savaşı:** siyasi-hukuki-ekonomik analiz /Dr. O.N.Aras, B.Dedeyev, R.Yılmaz.- Baku: Kafkasya Araştırmaları Enstitüsü Yayınları, 2008.- 194 s.

## Rus dilində

**Магеррамли, З**. Карабахская война: сражались и женщины /З.Магеррамли.- Санкт-Петербург: Лейла, 2005.- 271 с.

**Мамедов, Н.**Об истории Нагорно-Карабахского региона Азербайджанской Республики: [монография] /Н.Р.Мамедов; науч. ред. Я.Махмудов; НАН Азерб., Ин-т Истории им. А.А.Бакиханова.- Баку: Avropa, 2016.-227, [1] с.

**Наги, А.** Карабахская война: краткая история /А.Наги.- Баку, 2011.- 111 с.

## İngilis dilində

**Maharramli, Z.** Qarabagh war witnessed by women documentary stories and portrait-sketches /Z.Maharramli.- Baku Nurlan, 2005.- 268 p.

**Naghy, A**. Garabagh war: short history /A.Naghy.- Baku, 2011.-111 p.

**War against Azerbaijan: targeting cultural heritage** /designer N.Novruzov; compile K.Imranly; Ministry of Foreign Affairs, Republic of Azerbaijan; Heydar Aliyev Foundation.- Baku: MEGA, 2007.- 280 p.

# Mündəricat

Tərtibçidən........................................................................... 3
Giriş..................................................................................... 4
Aprel döyüşlərinin təbliğində kitabxanaların
qarşısında duran vəzifələr.....................................................10
Əlavələr...............................................................................17
Ədəbiyyat ...........................................................................30

# Hərbi vətənpərvərlik tərbiyəsinin təbliğində aprel döyüşlərinin rolu

(Metodik tövsiyələr)

**Nəşriyyat redaktoru**: *Mehriban Cəfərova*

Ünvan: AZ-1000 Bakı ş., Xaqani küç. 57
E-mail: contact@anl.az
URL: www.anl.az

M.F.Axundov adına Azərbaycan
Milli Kitabxanasının mətbəəsində
ofset üsulu ilə çap olunmuşdur.

Sifariş: № 6
Çapa imzalanmışdır: 15.03.2017
Tirajı: 150
Pulsuz